**Respublika**. - 2023.- 19 aprel. - № 81. - S. 7.

# Demokratik və müstəqil Azərbaycanın memarı

**Səfər ismayılov,**
Lənkəran rayon 1 saylı notariat ofisinin notariusu

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Xalqımızın dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir.**

Dünyaşöhrətli görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyəti Azərbaycan dövlətinə və xalqına fədakarcasına xidmətin bariz nümunəsidir. Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlətin qurulması ulu öndərin adı ilə bağlıdır.

Keçən əsrin sonlarında xalqımızın öz azadlığına, milli istiqlaliyyətinə qovuşması üçün növbəti dəfə tarixi şərait yarandı. 1991-ci ildə SSRİ-nin süqutundan sonra digər müttəfiq respublikalarla yanaşı, Azərbaycan da dövlət müstəqilliyini elan etdi. Lakin müstəqilliyin ilk illərində iqtidarda olanların səriştəsizliyi, naşılığı üzündən ölkədə qeyri-sabit vəziyyət yaranmış, bütün sahələri anarxiya, böhran bürümüşdü. Azərbaycan müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsi qarşısında qalmışdı. Belə ağır, çətin, taleyüklü məqamda xalqın təkidli tələbi ilə ümummilli lider siyasi hakimiyyətə qayıdaraq xilaskarlıq missiyasını öz üzərinə götürdü.

Qısa zamanda Heydər Əliyev dühası sayəsində ölkəmiz parçalanma, vətəndaş müharibəsi, məhvolma təhlükəsindən qurtuldu. 1993-cü ilin oktyabr ayında keçirilən prezident seçkilərində xalqın səsini yekdilliklə qazanan Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da ulu öndər andiçmə mərasimində söylədiyi proqram xarakterli nitqində demişdir: "Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının qəbul olunması, bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi və demokratik, hüquqi dövlət quruculuğu Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk milli Konstitusiya ölkəmizin yeni tarixi mərhələyə keçidi üçün geniş imkanlar açdı. Hüquqi, dünyəvi dövlət quruculuğu, demokratik prinsiplərin bərqərar edilməsi, insan hüquq və azadlıqlarının qorunması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mütərəqqi islahatlara start verildi.

1998-ci il fevral ayının 10-da ölkə başçısı Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edildi. Həmin il fevral ayının 22-də ümummilli liderin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı Fərman müdrik rəhbərin ədalət, humanizm prinsiplərinə, insan hüquqlarının etibarlı şəkildə qorunmasına böyük önəm verdiyinin parlaq təzahürüdür.

Ulu öndərin qanunvericilik təşəbbüsü ilə 1998-ci il dekabrın 1-də qəbul olunmuş "Məhkəmələr və hakimlər haqqında" Qanun əsasında məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, qısa müddətdə üçpilləli məhkəmə sistemi yaradılmışdır.

Ardıcıl və məqsədyönlü şəkildə aparılan hüquqi islahatlar nəticəsində "Konstitusiya məhkəməsi haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin hüquqi müdafiəsi haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Notariat haqqında" və digər mükəmməl qanunlar qəbul edilmişdir. Qanunların hazırlanmasında Avropa Şurasının ekspertləri yaxından iştirak etmiş, təklif və rəylərini bildirmişlər.

Ümummilli liderin qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş hüquqi sənədlər Azərbaycanın demokratik yolla inkişafı, dövlət həyatının bütün sahələrində Avropa dəyərlərinin tətbiq edilməsi üçün hüquqi baza yaratmışdır. Avropaya inteqrasiya istiqamətində atılan uğurlu addımlar sayəsində Azərbaycan Avropa Şurası kimi mötəbər təşkilatın tamhüquqlu üzvü seçilmiş, insan hüquq və azadlıqları ilə bağlı beynəlxalq konvensiyalara qoşulmuşdur.

Ölkəmizdə Əfvetmə İnstitutunun, Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması da ümummilli liderin adı ilə bağlıdır. 1995-2003-cü illərdə ulu öndər Heydər Əliyev tərəfindən 32 əfv

fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Həmçinin, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə 1996-2003-cü illərdə amnistiya haqqında 8 qanun qəbul edilmiş, 20 min nəfərdən çox məhkum azadlığa buraxılmışdır. Bu humanist addımlar məhkumlarda, onların ailə üzvlərində və cəmiyyətdə çox razılıqla qarşılanmış, mühüm tərbiyəvi əhəmiyyət kəsb etmişdir.

Ümummilli lider Heydər Əliyev ədliyyə orqanlarının fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdə rolunun və mövqeyinin yüksəldilməsinə ardıcıl şəkildə qayğı göstərmişdir. Ulu öndərin müstəsna diqqət və qayğısının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı sərəncamla hər il noyabr ayının 22-si ölkəmizdə ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Ulu öndərin ədliyyə sisteminin müasirləşdirilməsinə, onun mühüm dövlət təsisatına çevrilməsinə, insan və vətəndaş hüquqlarının yüksək səviyyədə təminatına xidmət edən siyasətini Azərbaycan Prezidenti cənab İlham Əliyev yeni dövrün tələblərinə uyğun uğurla davam etdirir. Bu baxımdan, möhtərəm Prezidentimizin 17 avqust 2006-cı il tarixli "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərmanı müstəsna əhəmiyyət daşıyır. Fərmana uyğun olaraq Ədliyyə Nazirliyinin strukturunda müvafiq dəyişikliklər edilmiş, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmiş, digərlərinin statusu genişləndirilmişdir.

Məhkəmə və ədliyyə orqanlarının əsas məqsədlərindən biri ölkə vətəndaşlarının hüquqi təsisatlara və hüquqi yardıma tələbatının ödənilməsi, onların həmin orqanlara müraciətinin asanlaşdırılmasıdır. Bölgələrdə regional ədliyyə, rayon (şəhər) qeydiyyat şöbələrinin, notariat orqanlarının fəaliyyətinin davamlı şəkildə təkmilləşdirilməsi vətəndaşlar tərəfindən rəğbətlə qarşılanmış və onlarda məmnunluq yaratmışdır.

Son illər ədliyyə, o cümlədən notariat orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişləndirilmiş, vətəndaşlara rahat, operativ və keyfiyyətli xidmət göstərilməsi təmin edilmişdir. Müasir dövrün tələblərinə uyğun olaraq inzibati işçilərlə təmasın minimuma endirilməsi məqsədilə elektron köşklər, veb-kameralar quraşdırılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə Konstitusiyada təsbit olunmuş hüquqi, demokratik, dünyəvi dövlət bərqərar olmuşdur. Ölkəmizin ədliyyə sistemi müasirləşdirilərək mühüm dövlət təsisatına çevrilmişdir. Müstəqil Azərbaycan hüquqi dövlət olaraq insan və vətəndaş hüquqlarının müdafiəsinə tam təminat verir. Ölkəmiz bu sahədə dünyanın inkişaf etmiş dövlətləri sırasında yer tutur.